Ümumilikdə, qeydiyyatdan keçmiş 10 ali təhsil müəssisəsinin 42 komandasından ikinci final mərhələsinə 6 tədris ocağını təmsil edən 20 komanda vəsiqə qazana bilib. Xatırladaq ki, ilk turda 30 faiz bal toplayan komandalar final mərhələsinə vəsiqə qazanıblar.

Finalda Qafqaz Universiteti 8 , Moskva Dövlət Universitetinin Bakı filialı 5, Bakı Dövlət Universiteti 4, Azərbaycan Texniki Universiteti 1, Azərbaycan Dövlət Neft Akademiyası 1 və Naxçıvan Dövlət Universiteti 1 komanda ilə mübarizə aparacaqlar.

Bu ilki olimpiada birinci mərhələdə respublikanın regionlarından iştirak edən komandaların sayının artması ilə yanaşı, tədbirə ilk dəfə qatılan və 5 komanda ilə iştirak edən Moskva Dövlət Universitetinin Bakı filialının bütün komandalarının final mərhələsinə vəsiqə qazanması ilə əlamətdardır.

Olimpiadanın final mərhələsi 2010-cu il mayın 8-də AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda keçiriləcək.

Onu da qeyd edək ki, informatika üzrə beynəlxalq komanda yarışlarının yarımfinalında Azərbaycanı təmsil edəcək komandanın seçimi və hazırlanması işinə xidmət edən olimpiadanın sponsorları HP-nin Azərbaycan nümayəndəliyi, Sinam, Ultra, Bakcell, Azerfon, Detla Telecom və R.I.S.K şirkətləridir.